*JOURNAL OF QAFQAZ UNIVERSITY- PHILOLOGY AND PEDAGOGY*
*2015. Volume 3, Number 1* *Pages 3-10*

***UOT: 398:801.6***

# BƏHRAM ƏSƏDİNİN VÜCUDNAMƏSİNDƏ VARLIQ VƏ ONUN TƏKAMÜLÜ

**Elmira MƏMMƏDOVA-KEKEÇ**

AMEA Folklor İnstitutu, Xəzər Universiteti

Bakı / AZƏRBAYCAN

*mamedovaelmira4@gmail.com*

**XÜLASƏ**

Varlıq və onun mahiyyəti daima müxtəlif elmlərin diqqət mərkəzində olan mövzulardandır. İnsan varlığının dərkinə çalışan yaradıcı insanlar, o cümlədən şairlər bədii əsərlərdə də bu məsələnin fəlsəfi həllini verməyə cəhd etmişlər. Bu baxımdan türk xalqları ədəbiyyatının da bir çox bədii örnəklərində varlıq problemi haqqında qənaət və düşüncələr ifadə edilmişdir. Məsələ ilə əlaqədar türk xalqları ədəbiyyatında ayrıca bir ədəbi forma ortaya çıxmış və vücudnamə adlanan bu bədii yaradıcılıq nümunəsi vasitəsilə insan varlığının metafiziki və fiziki aspektlərinin dərkinə çalışılmışdır. Yazılı ədəbiyyatda bunun ilk örnəyini isə böyük mütəsəvvüf Əhməd Yəsəvi vermişdir.

Daha çox nəmzlə, bəzən isə nəsrlə qələmə alınan vücudnamələr bütün türk xalqları şerində olduğu kimi, Azərbaycan ədəbiyyatında geniş yayılmış bir poetik formadır. Güney Azərbaycan aşıq mühitində də vücudnamələr keçmişdən günümüzə qədər insan həyatı ilə bağlı ədəbi-bədii nümunələr kimi diqqəti cəlb edir. Bu mühitdə qələmə alınmış örnəklərdən biri də Bəhram Əsədiyə məxsusdur.

Tədqiqat obyektimiz olan vücudnamə həcmcə böyükdür, 44 bənddən ibarətdir. Şeir qoşma ölçüsündədir. Məzmun etibarilə bu vücudnamədə varlıq fəlsəfəsinin yer aldığını görürük. Vücudnamədə metafiziki və fiziki varlığın təkamül əsasında ortaya çıxması qeyd edilməklə yanaşı, insanın dünya və axirət həyatı haqqında da məlumat verilir. İlk beş bənddə şair varlığın təkamülünü və bu prosesdə dörd ünsürün rolunu, varlığın əsasında formaca dəyişmələrin durduğunu qeyd edir.

**Açar sözlər:** Vücudnamə, Bəhram Əsədi, varlıq, təkamül, insan.

**БЫТИЕ, ЕГО ЭВОЛЮЦИЯ В «ВЮДЖУДНАМЕ» БАХРАМА АСАДИ**

**РЕЗЮМЕ**

Бытие, его суть всегда являлось темой, привлекавшей внимание самых различных отраслей науки. Творческие личности, поэты и писатели, стремившиеся к постижению человеческой натуры, в своих произведениях предпринимали попытки найти именно философское решение указанной проблемы. С этой точки зрения литература тюркских народов представляет особый интерес, поскольку в многочисленных литературных произведениях высказывались глубокие мысли и выводы о проблеме бытия. Именно на этой основе в литературе тюркских народов зародилась самостоятельная литературная форма-«вюджудname».

Посредством «вюджудname» поэты старались постичь метафизическую и физическую сущность природы человека. Первыми примерами литературного творчества подобного рода являются произведения выдающегося теософа и мистика Ахмеда Ясеви.

«Вюджудname» написанные чаще всего в поэтической форме (в отдельных случаях – прозой), представляют собой определенную литературную форму, широко развитую в поэзии всех тюркских народов, и в азербайджанской литературе в том числе. В ашугской поэзии Южного Азербайджана дошедшие до наших «вюджудname» привлекают внимание как литературно-художественные образцы, связанные именно с вопросами человеческого бытия.

Один из таких образцов принадлежит перу Бахрама Асади. «Вюджудname», являющийся предметом нашего исследования, состоит из 44 строф, т.е. велик по объему. Стихотворения написаны размером «гошма». С точки зрения содержания в названном «вюджудname» философия бытия проступает совершенно отчетливо. То есть, в произведении указывается, что метафизическое и физическое начало проявляется в процессе развития, эволюции, также говорится о земной и о загробной жизни человека. В первых пяти строфах автор подчеркивает эволюцию бытия, роль четырёх стихий в этом процессе, также отмечает что основой бытия являются изменения форм указанных стихий.

**Ключевые слова**: «Вюджудname», Бахрам Асади, бытие, эволюция, человек.

**EXISTENCE, IT`S EVOLUTION IN "VUJUDNAME" BY BAHRAM ASADI**

**SUMMARY**

Existence, it's matter is the theme, always attracted different spheres of science. Creative persons, writes and poets especially aspired to understand the human nature and made attempts to find philosophical decision of this problem in their works. The literature of Turkic peoples is of great interest from this point of view. In numerous works poets expressed their deep thoughts and conclusions about problem of human existence. As a result, in Turkic literature new literary form- "vujudname" engendered.

By means of "vujudname" poets tried to cognize metaphysical and physical matter of human being. So, the works, verses of outstanding mystic and theosophist Ahmad Yasevi can be considered as first samples of literary creativity of such kind.

"Vujudname" are written in poetic form as a rule, (sometimes in prose form). "Vujudname" is definite literary form, widely spread in poetry of all Turkic peoples, and Azerbaijani literature also. In ashug poetry of South (Iranian) Azerbaijan, "vujudname" come to our days, are interesting as literary samples, connected with the existence of human being.

One of brightest samples of "vujudname" is written by poet Bahram Asadi. The object of our investigation is one of Asadi's "vujudname". This "vujudname" is quite large, it consists of 44 strophes. Strophes are written in "goshma" metre.

From content point of view, in mentioned "vujudname" the philosophy of existence is seen quite clearly. E. g. in this poetic work author points out, that both metaphysical and physical matter displays in evolution process. Besides, author tells about earthy existence and afterlife. In first five strophes Asadi wrote about matter of evolution of existence, role of four elements in this process, and underlines very important philosophic idea: the transformations of these four elements are basic of existence.

**Key words:** "Vujudname", Bahram Asadi, the man, existence, evolution.

## Giriş

Məşhur Şərq filosofu əl Kindiyə görə, fəlsəfə "insanın gücü ölçüsündə əbədi və külli olan varlıqların həqiqətini, mahiyyətini və səbəblərini" bilməkdir. Bu həqiqətin dərki və yaradılış məsələsi uzun əsrlərdən bəri ədəbiyyatın və fəlsəfənin diqqət mərkəzində olmuşdur. Müxtəlif filosoflar və şairlər varlığın mahiyyətini izah etməyə çalışmış, Şərq və Qərb fəlsəfi fikrində bununla bağlı çoxlu sayda mülahizələr irəli sürülmüşdür. Bu problem həmçinin bədii ədəbiyyatın da nəzərdə saxladığı mövzulardan olmuşdur. "Bu baxımdan insan ömrünün ədəbi-fəlsəfi dərki məsələsinə toxunan və həyatın ümumi məzmununu xülasə edən vücudnamələr bir ədəbi forma kimi bədii yaradıcılıqda yaradılışla, varlıq fəlsəfəsi ilə bağlı müxtəlif şair və aşıqların görüşlərini əhatə edir. Vücudnamələr aləmlərin bir əksi olan insan vücudunun yaradılması, formalaşması, bu dünyada ömür sürməsi və köçüb getməsi ilə bağlı dini-fəlsəfi qənaətləri əks etdirir. Başqa sözlə, insan varlığının fiziki və metafiziki dərki məsələsi də vücudnamələrdə yer alan məsələlərdəndir. Əslində klassik vücudnamələrdə "vücud" sözü həm də "varlıq" anlayışının qarşılığı kimi çıxış edir. [11] Orta əsr Anadolu şairi və mütəsəvvüfü Qayğısız Abdalın (XV) "Vücudnamə" adlı risaləsində də vücud sözü hərfi mənasında deyil, varlıq fəlsəfəsi və vəhdəti-vücud təlimi ilə əlaqədə verilir (Bu barədə geniş məlumat üçün bax: Elmira Məmmədova-Kekeç. Qayğısız Abdalın «Vücudnamə»sində Ontoloji Məsələlər. AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Hacı Bektaş Vəli Kültür Dərnəyi, Türk İşbirliyi Koordinasiya Agentliyi, AMEA Folklor İnstitutu. "Azərbaycan–Türkiyə: Yeddi Ozan" beynəlxalq elmi simpoziumu, Bakı, 2015, 07-10 may).

Güney Azərbaycan ədəbi mühitində də vücudnamələr geniş yayılmış və bir çox müəlliflər bu cür əsərlərə müraciət edərək həyat və ölüm haqqında, ümumiyyətlə, varlıq barədə görüşlərini ifadə etmişlər. Belə şairlərdən biri də Bəhram Əsədidir. O, 1965-ci ildə Güney Azərbaycanın Urmiya şəhərində doğulmuşdur. İlk və orta təhsilini burada başa

vurmuş, daha sonra pedaqoji təhsil almış və 1986-cı ildən müəllim işləmişdir. Bəhram Əsədi 20 yaşından şeir yazmağa başlamış və onun indiyə qədər 30-dan çox kitabı çap olunmuşdur. Bəhram Əsədinin çap olunmuş şeir kitabları aşağıdakılardır: «Aşıq məktəbində», «Azərbaycan oğluyam», «Duyğuların bəndi», «İrfan məclisində», «Qəmnamə», «Lirik şeirlər», «Şeirlər və şairlər», «Uçurum», «Yaşıl bayrağın altında». Bu kitablarında müxtəlif mövzuları əks etdirən şair öz yaradıcılığında folklora yaxınlığı ilə seçilir. Bəhram Əsədi yaradıcılığında "Vücudnamə" şerinin xüsusi bir yer tutduğunu deyə bilərik. Bu şeri vasitəsilə o, varlıq aləminə dini-fəlsəfi yanaşma ilə öz münasibəti bildirmişdir.

"Vücudnamə"də insan varlığı kainatın yaradılması ilə vəhdətdə verilir, şerin giriş hissəsi buna həsr olunmuşdur. Yəni şeirdə insanın dünya həyatından öncəki metafiziki və bu dünyadakı fiziki varlığından bəhs edilir.

## 1. Varlığın yaradılması haqqında:

Bəhram Əsədinin vücudnaməsini məzmun etibarilə dörd hissəyə bölmək mümkündür. Birinci hissədə İlk varlıq (Birinci Cövhər və ya Vacibül-vücud), ikinci hissədə ikinci cövhər (dörd ünsür), üçüncü hissədə maddi varlıq (insan) və nəhayət dördüncü hissədə maddi qabığını itirən varlıq (ruh) haqqında bəhs edilir. Qeyd edək ki, həm Aristotel, həm də Fərabi tərəfindən birinci və ikinci cövhər anlayışları qəbul edilmiş və Allahla Onun yaratdıqlarının əsas maddəsi mənasında istifadə edilmişdir. (Geniş məlumat üçün bax: Mevlüt Uyanık. İslam Felsefesinin Teşekkül Dönemi "Varlık" Anlayışında Birinci ve İkinci Cevher Kavramı. *Hitit Üniversitesi İlahiyat Fakültesi Dergisi,1,* 2002, s. 132-159.) Birinci və ikinci cövhər anlayışları bəzən paralel olaraq "özü-özünə kifayət edən əzəli varlıq" və "başlanğıcı olmayan əzəli varlıq" şəklində də verilir. *"Eski filozoflar (Farabi ve İbn Sina) nedeni olmayan, kendi kendine yetebilen ezeli varlık ile başlangıcı olmayan ezeli varlık arasında bir ayrım yapmışlar ve birincisine Tanrı, ikincisine ise âlem demişlerdir. İbn Rüşd de onların bu ayrımını kabul etmiştir. Ona göre de bir şey aracılığıyla meydana gelmemiş, Felsefi Düşüncede Yaratma Problemi kendinden önce zaman geçmemiş olan fakat bir şey sonucu yani fâil neden sonucu meydana gelmiş olan varlık vardır ki bu da âlemin kendisidir"*. [1, səh. 75-76 ]

Varlıq probleminə münasibətdə, ümumiyyətlə, müxtəlif filosoflar arasında fikir müxtəlifliyi mövcuddur. Həmin filosoflar aləmin əzəli olub-olmaması məsələsində də müxalif fikirlər səsləndirirlər. *"Gazali'ye göre ezeli olan Allah, kendini ezeli olmayan âlemde fiilleriyle gösterir. Ehl-i sünnet kelamcıları, başta Gazali olmak üzere, kâinatın ezeli olması fikrinin filozofların en zararlı tezleri olduğu kanaatinden hareketle, bu görüşe karşı şiddetli bir mücadele ortaya koymuşlardır. Onlara göre yalnızca Allah ezeli, onun dışındaki her şey ise yaratılmış ve dolayısıyla sonradandır."* [1, səh. 73]. Təhlilə cəlb edəcəyimiz vücudnamədə də bu qənaət qəbul edilir və yaradılış prosesi aşağıdakı şəkildə verilir:

*Laməkan seyrini edirdim bir vaxt,*
*Mənə əmr olundu məkana gəldim.*
*Saysız kəhkəşanlar yaranan gündə,*
*Payim düşdü mən bu cəhana gəldim.*

Əslində "əzəliyyət" məsələsində başlanğıc olaraq Tanrının adı çəkilməsə də, "laməkan" da mövcud olan varlığa əmr verən Odur. Bu baxımdan Bəhram Əsədinin fikri Fərabi və İbn Sinanın fəlsəfi görüşləri ilə səsləşir: *"Ezeli yaratmayı savunan Farabi ve İbn Sina gibi İslam filozoflarına göre; Tanrı âlemi ezelde yani zaman olmaksızın yaratmıştır. Tanrı'nın âleme önceliği zamansal değil, zâti bir önceliktir. Sonradan yaratmayı savunanlara göre ise âlem, Tanrı ile beraber değildi. O, sonradan zaman içinde yaratılmıştır. Yani Tanrı'nın âleme olan önceliği zamansal bir önceliktir"*. [1, səh. 72] Dörd misrada əslində varlığın başlanğıc mərhələsində Allah və (Onun yaratdığı) ikinci cövhərdən bəhs olunur. Bu cövhər məhz zamanı çatdıqda və əmr olunduqda "məkana gəlir". "Məkana gəlmək" burada metafiziki varlıqdan

fiziki varlığa keçid mənasını verir. Ümumiyyətlə, "Vücudnamə"nin ilk yeddi bəndində yaradılış prosesi varlığın formalarının yer üzündə bir-birinə çevrilməsi şəklində təsvir edilir.

Şerin ilk bəndində klassik vücudnamələrdən fərqli olaraq, Allahın adı çəkilməsə də, Onun ilk başlanğıc olmasına dair işarələr vardır. Məlum olduğu kimi, həm fəlsəfi, həm də dini mətnlərdə məkansızlıq Allahın atributlarındandır. Kəhkəşanların –kainatın yaradılmasından öncə "məkansızlıq içərisi"ndə "seyr edən" varlıq, fikrimizcə, ruhdur. Analoji olaraq bir çox klassik vücudnamələrdə bu məqamda bəzmi-ələst məclisindən və Allaha iqrar verilməsindən bəhs edilir. Şeirdən öyrənirik ki, "seyr edən" metafiziki varlıq əmr edildikdən sonra məkana gəlir. "Əmr edən kimdir?" – deyə soruşsaq, cavabı Quranda tapmış olarıq: "«Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: "(Bəşər) ol!"- dedi, o da oldu» [Ali-İmran 59].

Ümumiyyətlə, Quranda səkkiz ayədə (Baqara, 2/117; Ali-İmran, 3/47,59; Ənam, 6/73; Əraf, 7/144; Hicr, 15/98; Nahl, 16/40; Məryəm, 19/35; Yasin ,36/82) əsasən yaradılış məsələləri ilə bağlı olaraq "ol" əmrindən bəhs edilir. Abdülməcid Okcuya [13, səh.164] görə, hər mərhələ təkamüldə yeni bir yaradılış sayılmalıdır.

## 2. Varlığın Təkamülü və Dəyişən Formaları: Cəmadat, Heyvanat, Nəbatat, İnsan

Vücudnamədə metafiziki aləmdə varlığın formalaşmasından bəhs olunduqdan sonra fiziki aləmdə, cahanda onun təkamülü haqqında məlumat verilir. Fikrimizcə, Quranın Nuh surəsinin 13-14-cü ayələrində qeyd edilən mərhələli yaradılışla bu vücudnamədəki təkamül arasında müəyyən əlaqə qura bilərik. Həmin ayələrdə deyilir: *"Necə olub ki, siz Allahın böyüklüyünü layiqincə uca tutmursunuz? Axı O sizi mərhələlərlə yaratdı."* [Nuh, 13-14]. Türkiyəli alimlər tərəfindən bu ayələrdəki "ətvaran" sözünə xüsusi diqqət yetirilərək, varlığın formalaşması və təkamülündə "mərhələli dəyişmə"nin, yaxud bir formadan digər formaya keçidin olduğu vurğulanır: *"Ayette geçen "Etvâran" kelimesi, tekili "bir halden diğer bir hale geçmek" veya "bir merhaleden diğerine geçmek" anlamına gelen "tavr" kelimesinden gelmedir mastarı olan "tatavvur", günümüzdeki (evolution) kelimesine tekabül eder. Müradifi/eşanlamlısı olan olan "tahavvul" de dönüşümcülük (istihale) yani transformisme'in karşılığıdır. Söz konusu ayette "etvâran" kelimesi insan evriminin biyolojisindeki (etapes consecutives) denilen art arda gelen evrim merhalelerinin tümünü içermektedir. Şu halde bu kelimeyi "evrim merhaleleri" şeklinde yorumlamak gerekir. Bazı müfessirlerce bu ayet, "bir halden diğerine" gibi spiral, "farklı şekiller altında", "merhaleler halinde" gibi vertikal bir diyalektik şeklinde düşünülerek yorumlanmaktadır. Her halükârda bu ayet bize, evrimin tabiata bahşedilmiş ilâhi bir kanun olduğu gösterir".* [13, səh. 166-167]

Vücudnamədə insanın təkamülündə cansız aləmdən canlıya doğru inkişaf əslində fəlsəfi baxımdan cövhərlə sifətlər arasındakı əlaqənin, həmçinin dəyişməliklərin (varlıqların birinin digərinə çevrilməsinin) göstəricisidir. Antik yunan filosoflarından Empedoklun varlığın dəyişməsi ilə bağlı fikirlərinə nəzər salsaq, məsələnin mahiyyətini daha yaxşı anlayarıq: *"Empedokles'e göre, alemdeki değişenler ile değişmeyenler arasındaki ilişkinin (bir'den çok'un) nasıl meydana geldiğini açıklanması önemlidir. Tek bir unsur vardır ve bu özü bakımından değişmez, başka bir şeye dönüşmez: Bununla birlikte doğada her şey (cisimler) değişmektedir. O halde nesneleri oluşturan muhtelif unsurlar/birler/cevherler olmalıdır. Bunlar (toprak, hava, su, ateş) arasındaki çeşitli oranlardaki etkileşim, karışım ve çözülme sonucunda mevcut değişiklikler olmaktadır".* [18, səh. 135] Sitatda qeyd edilən dörd ünsür və onların birləşmə formalarından yeni cisim və varlıqların ortaya çıxması təhlilə cəlb etdiyimiz vücudnamədə də öz bədii-fəlsəfi həllini tapır. Digər yunan fi-

losofu Heraklitin *"Hər şey daima dəyişkənlik içindədir"* tezisi də kainatda daima çevrilmə və dəyişmə prosesinin mövcud olması haqqında antik görüşün bir nümunəsidir.

Vücudnamədə bu dəyişmə və çevrilmə ilk olaraq cəmadat aləmində baş verir. Vücudnamənin iki bəndində cəmadatın, yəni cansız varlıqların yaranması və ya mərhələli təkamülü, bir haldan digərinə çevrilməsi haqqında məlumat verilir:

*Yerin bətnində idi məkanım mənim,*
*Olmuş idi qatbaqat yerlər məskənim,*
*Birdən yer yarıldı, əsdi bədənim,*
*Bir dağın ucundan vulkana gəldim.*

*Daş oldum, dağ idi mənə yer, məkan,*
*Uzun vaxtdan sonra sindim yağışdan*
*Qum oldum çaylarla axdım bir zaman,*
*Ayaqlar altında fəğana gəldim.*

Mənzuməyə fikir versək, burada cansız aləmdə baş verən təkamül prosesindən bəhs olunur; yer üzündə varlığın təkamülü mantiya ("yerin bətni") təbəqəsində lava şəklində olan maddənin dərin süxurlardan vulkan kimi püskürməsi ilə izah olunur. Bundan sonra həmin kütlənin başqa bir maddəyə çevrilməsi, daşlaşması, daha sonra isə yağışdan süzülüb quma çevrilməsi deyilir. Beləliklə, yer üzündə cansız varlıqların ilk inkişafından bəhs edilir.

Qeyd edək ki, varlığın daha sonrakı inkişafında yeni bir dəyişmədən və çevrilmədən söhbət açılır. Yer üzündə təkamülün növbəti mərhələsi nəbatat ve heyvanat aləminin formalaşması və inkişafıdır. Həmin proses haqqında Bəhram Əsədi yazır:

*Yolun torpağı idim uzun bir zaman,*
*Məni ayaqlardı hər yaxşı, yaman,*
*Qarışdım əkinə, çıxdım göy otdan,*
*Davar məni yedi mən cana gəldim.*

Bu motivə xalq nağıllarında da rast gəlinir. Nümunə olaraq, "Bacı-qardaş" nağılını göstərə bilərik. 510 A (Göyçək Fatma) süjet göstəricili nağılda Fatmanın qardaşı əvvəlcə öküzə, sonra isə xoruza çevrilir və bacısına kömək edir. Bu nağılda varlığın insandan heyvana və quşa (xoruza) çevrildiyini, "don dəyişdirdiyini" görürük. Nağıllardakı bu metamarforza "forma/şəkil dəyişdirmə" kimi də xarakterizə edilir: "Şekil değiştirme masalların değişmeyen motifi olup, burada büyüsel yapıyla çeşitli dönüşümlere rastlanır. Insan; hayvana, bitkiye veya herhangi bir nesneye dönüşürken, bunun tam tersi de olabilmektedir". [14, səh. 6]

Təbii ki, müxtəlif nağıl və dastanlarda "don dəyişdirmə" motivi kimi verilən bu hadisə heç də yaradılış və təkamül prosesi ilə əlaqədə verilə bilinməz. Əslində bir çox başqa dini mətnlərdə, xüsusilə də buddist inancında varlığın bir formadan digər formaya keçməsi və ən ali varlıq olan Nirvana mərhələsində dəyişmənin sona çatması məlumdur. *"Budizm inancında canlılar, bir bedenden başka bir bedene, bir yaşamdan başka bir yaşama, sürekli bir şekilde yeniden doğum zinciri içerisindedirler. Bu yaşamadan yaşama geçiş canlının Nirvanaya ulaşması ile son bulur. Metamorfoz konusunun dışında olan bu başka yaşama geçiş Budizm inancının temel taşlarından biridir. Bazı Eski Uygurca eserlerde başka yaşama geçiş metamorfoz kavramı ile neredeyse iç içe geçmiş bir şekilde görülebilmektedir. Reenkarnasyon ya da tenasüh olarak bilinen yeniden doğum bir taraftan bakıldığında şekil değiştirmedir. Bunun yanında bir de Maitreya gibi kutsal varlıkların suret değiştirme şekilleri ile karşılaşılmaktadır. Bu değişim, İslami literatürde hulûl, halk hikâyelerinde ise suret/don değiştirme ile ifade edilir. Suret değiştirme motifi de Eski Uygurca eserlerde sıkça rastlanan motiflerden birisidir"*. [6, səh. 6]

Beləliklə, xalq təfəkküründə və qeyri-islami mətnlərdə rast gəldiyimiz varlığın bir formadan digər formaya keçməsi məsələsi islam mütəsəvvüfləri tərəfindən vəhdəti-vücud fəlsəfəsi ilə əlaqədə verilir. Bu fəlsəfi düşüncəyə görə, təcəlli anlayışı ortaya çıxmış və dəyişən formalar ilahi varlığın "maddiləşmiş qabıq"ları olaraq izah edilmişdir. Mövlana-

nın: *"Torpaqdım, ot oldum, quş oldum, insan oldum"*, -fikrini də bu kontekstdə izah edə bilərik. Bu düşüncədə də təkamül prosesində cansız aləmdən canlıya doğru keçidin pillələri göstərilir.

Nəzər saldığımız vücudnamədə də mərhələli yaradılış prosesində cansız varlıqdan canlı aləmin (torpaqdan bitki aləminə keçid), canlı aləmdə isə müxtəlif varlıqlar arasındakı keçidlərin mövcud olması qeyd edilir. Qeyd edək ki, bütün bu canlı və cansız aləmdə dəyişən varlıqların əsasındakı "cövhər" olduğu kimi qalır, sadəcə forma dəyişir. Vücudnamə həmin cövhərin dilindən deyilir və o, açıq-aşkar şəkildə həm cansız, həm də canlı aləmdə olan formaca dəyişmələrindən bəhs edir. Bu dəyişmələr həlqəsində növbəti mərhələ insandır:

*Davarlıq dövəranım ki sona irdi,*
*Qəssab kəsdi məni bazara verdi.*
*Atam məni aldi, anam bişirdi,*
*Yedirtdi atama insana gəldim.*

Bənddən göründüyü kimi, metamarfozanın digər həlqəsi heyvandan insana çevrilmə, dünyaya gələcək uşağın varlığının, nəhayət, atanın varlığında öz yerini tapmasıdır. Bu şəkildə metafiziki aləmdə Allahdan ayrılıb seyrə başlayan ruh fiziki aləmdə dövrə başlayır. Təsəvvüfdə bu proses aşağıdakı şəkildə izah edilir: *"Varlık âleminde her şeyin, özelde insanların var olmaları ve kendilerini gerçekleştirmeleri, bir ayrılma olgusunu yaşamalarını gerektirir. Kâinatın ve insanın oluşumu yani tasavvuftaki yedi iniş, ilahi isimlerin zattan ayrılmasıdır. İnsanın dünya serüveni de cennet (gibi yer) den ayrılma arketipi ile ilişkilidir. İnsanın doğumu anneden ayrılması, anne rahmine çocuğun düşmesi de babadan ayrılmasıdır. Kolektif bilinçdışı icabınca her kişi "ayrılma" arketipini yaşar"*. [10, səh. 1020] Beləliklə, ayrılığın və ya ruhun seyrinin növbəti mərhələsi isə ana bətnidir. Vücudnamənin növbəti bəndi isə buna həsr olunmuşdur:

*Atamdan bir zaman anama yendim,*
*Doqquz ay qaranlıq zindana sindim,*
*Yedigim qan oldu, onu bəgəndim,*
*Orda da qadaya nəşanə gəldim.*

*Orda da asudə mən qalanmadim,*
*Huşa gedəmmədim, zoq alanmadim,*
*Oyatdılar məni yurd salanmadim,*
*Dunyaya göz açdım dövrana gəldim.*

Diqqət etsək, şairin sonuncu misrada «*Dünyaya göz açdım, dövrana gəldim*» söylədiyini görürük. Dövrana gəlmək əslində ruhun başlanğıcdan bu dünyada insan şəklinə qədər seyrini ifadə etmək üçün istifadə edilmiş söz birləşməsidir və təsəvvüfdə bununla əlaqədar dövriyyə adlı xüsusi şeirlərin də yazıldığı məlumdur. Klassik təsəvvüfi mətnlərin araşdırıcılarından olan İskəndər Pala dövretmə prosesi haqqında yazır : *"Cenab-ı Hak, "kün (ol)" emrini verdi ve her şey böylece yaratıldı. Allah, Âlem-i Kitmân'da meknûz iken böylece bilinmeye başladı. Allah, önce bir nûr yaratıp ona "Kün Muhammedâ" buyurdu. "Nûr-i Muhammed" denilen bu nûr, Allah'ın haşmetli nazarı karşısında terledi. Onun terinden denizler ve köpüğünden de eflâk (felekler, gökler, zamanlar) yaratıldı. Sonra sırasıyla anasır-ı erbaa (toprak, hava, su, ateş), mevâlid-i selâse (mâden, nebat, hayvan olmak üzere tabiatın üç âlemi) ve nihayet âdem (insan) belirdi. İnsanın bütün bu mertebelerden geçerek çocuk dünyaya gelişi bir devir hâlindedir ki devriyelerde bu husus islenir. İşte tasavvuf, insanın Allah'a ulaşmasında bütün bu mertebeleri aşmasıdır"*. [7, səh. 11]



Dövriyyələrlə vücudnamələr arasındakı fərqli və bənzər xüsusiyyətlər tərəfimizdən də araşdırılmışdır və xüsusilə Yunis Əmrə yaradıcılığında dövriyyə şeirlər haqqında «Yunus Əmrənin "Düşdü könül" qəzəlinin poetik forması haqqında: dövriyyə, yoxsa vücudnamə? » adlı məqaləmizdə daha geniş məlumat verilmişdir.

Vücudnamənin daha sonrakı bəndlərində insanın bu dünyadakı yaşamı və öldükdən sonra dövretmənin yeni bir pilləsinə qədəm qoyması haqqında məlumat verilir. Təsəvvüfi düşüncəyə görə, insan varlığı bu dünyada daima Allaha qovuşmaq dilək və arzusu ilə yaşayır. « *Varlık aleminde Allahın isim ve sıfatiarını küll bir biçimde yansıtan yegane varlık insandır. Bu düşünceye göre insan vahdet denizinden yeryüzüne saçılmış bir damla gibidir. Bu nedenle ilahi kaynaklı olan ruh, kendisinden ayrılmış olduğu varlığa şiddetli bir arzu duyar".* [15, səh. 213]

Lakin Allaha qovuşmanın yolu nəfsi tərbiyə etməkdən və kamilləşməkdən keçir. Bunun üçün ruhun bu dünyadakı seyri kamil insana çevrilmək üçün olan bir yoldur.

Vücudnamədə ruhun seyri fiziki aləmdə müxtəlif dəyişmələrdən, çevrilmələrdən başlayır. Kainatın əşrəfi sayılan insan varlığının təkamülündə cansız və digər canlı varlıqların rolu da açıqlanır. Təsəvvüfi dünyagörüşə görə, canlı və cansız aləmin hamısı Mütləq Varlığın təzahür formalarıdır. « *Mevcûdât, mutlak varlığın tezâhürüdür. Bu zuhur kuvvet âleminden, yani melekûttan tabiat ve anâsır âlemine gelmiş, göklerde anâsırın birleşmesinden cemâdât, nebâtât ve canlılar meydana gelmiştir. Bu zuhûr insanoğlunda kemâle ermiştir* ». [4, səh. 38]

Təsəvvüfi ədəbiyyatda uzun əsrlər boyu Mütləq Varlıq və Onun təcəlli formaları haqqında yüzlərlə əsərlər qələmə alınmış, bədii örnəklərlə bu fəlsəfi mülahizə əsaslandırılmağa çalışılmışdır. Bəhram Əsədini də bu təsəvvüfi mülahizələrin davamçısı sa a bilərik. Həmin şeirlərə nümunə olaraq Niyazi Misrinin aşağıdakı misralarını vermək istəyirik:

*Halvetden itdüm rıhleti kesretde buldum vahdeti*
*Bâzârda düzdüm halveti rûz şebüm ʿîd ü berât*
*Gördüm bu âlemler kamu benüm vücûdumla tolu*
*Bir olmış uçmağ u tamu cümle bana olmış sıfat*
*Her ne yana kim eğilem ol yana her şey egilür*
*Olmış Niyâzî hep senün sayelerün sitt-i cihât*

[17, səh. 37]

Şeirdə qeyd edildiyi kimi, aləmlər Allahın varlığının dəlili və təzahür formalarıdır. Vəhdəti-vücud fəlsəfəsində həmçinin insan varlığında isə aləmlərin əks olunduğu qeyd edilir. Qayğısız Abdalın « Vücudnamə» risaləsində də eyni fikir irəli sürülür.

## Nəticə:

Məzmun baxımından vücudnamələr, adətən üç qrupda təsnif edilir: ümumi insan həyatı ilə bağlı vücudnamələr, qız-qadınlarla bağlı vücudnamələr, tərcümeyi-hal səciyyəli vücudnamələr. Bəhram Əsədinin vücudnaməsi məzmun etibarilə birinci qrupa daxil edilə bilinər. Lakin bu vücudnamə varlıq fəlsəfəsinə xüsusi yer verməsi ilə seçilir.

Vücudnamədə məkansızlıq və məkan kateqoriyaları qarşılaşdırır və birinci insan övladının ilk yeri olaraq verirlir. Bu vücudnamədə məkan və zaman anlayışına fəlsəfi münasibət özünü göstərir. Vücudnamənin başlanğıcında qeyd olunan zaman isə elə bir zamandır ki, hələ kəhkəşanlar belə yaradılmamışdır. Öncə topraqda element şəklində olan, sonra torpaqdan bitkiyə keçən və nəhayət, insan şəklinə düşən varlıqdan bəhs edilir.

Bir yaşdan yüz yaşa qədərki ömür yolununun uşaqlıq, gənclik və ahıllıq mərhələləri təsvir edildikdən sonra isə axirət dünyasına köç edən insanoğlunun qəbir əzabı və o dünyada haqq-hesaba çəkilməsi haqqında danışılır.

Vücudnamənin son bəndlərində isə Qiyamət günü təsvir edilir və bütün məxluqatın o dünyada yaxşı və pis əməllərinə görə cavab verəcəyi Bəhram Əsədi tərəfindən bir daha vurğulanır. Bu baxımdan islam dünyagörü-

şü, Quran ayələri və ümumi təsəvvüf fikri əsasında qələmə alınmış vücudnamə həm də dünya həyatının müvəqqəti olduğunu, axirəti qazanmaq üçün yaxşı əməllər görməyi təbliğ edir.

Beləliklə, ilk dəfə təhlilə cəlb edilən bu vücudnamədə varlığa və insan varlığına fəlsəfi münasibət ifadə edilir.

**QEYD**

Bu məqalə "Bəhram Əsədinin "Vücudnamə"sində varlıq fəlsəfəsinin inikası" (Ümumilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ilinə həsr olunmuş Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı, Qafqaz Universiteti, 2015, 17-18 aprel,) adlı məruzə əsasında hazırlanmışdır.

**ƏDƏBİYYAT**


1. Akgün Tuncay. Felsefi Düşüncede Yaratma Problemi. Toplum Bilimleri, Ocak - Haziran 2012, 6 (11) : 69-96
2. Ayar Murat. Mevlânâ'nin Rubâîlerinde Seyr u Sülûk Metaforu Olarak "Gece". http://www.bilgelerzirvesi.org/bildiri/pdf/murat-ayar.pdf
3. Azərbaycan nağılları. Beş clddə. IV cild. Bakı, Şərq-Qərb, 2005, s. 108-110
4. Ballı Hasan Hüseyin. "Hurufilik Nedir?." e-Makalat Mezhep Araştırmaları Dergisi 4.2 (2011): ss-31-48
5. Çalışkan Necmettin. "Kur'an'da İnsanın Canlı (Nebâtât-Hayvânât) ve Cansız (Cemâdât) Varlıklarla İlişkisi T.C. Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Sosyal Bilimler ve Temel Islam Bilimleri Tefsir Anabilim Dalı, Yayınlanmamış Yüksek Lisans Tezi, Ankara 2010
6. Elmalı Murat. Eski Uygur Türkçesi Metinlerinde Metamorfoz. Acta Turcica, 2012, 2, s. 6
7. Erol Kemal, Erol Emrullah. Mevlana'nin Mesnevi'sinde "Insan" Telakkisi ve "İnsan-ı Kâmil" Ölçüsü. Türk & İslam Dünyası Sosyal Araştırmalar Dergisi /The Journal of Turk & Islam World Social Studies, Yıl: 2, Sayı: 2, Mart 2015, s. 8-18
8. Əsədi Bəhram. Gəldim. Türk xalqları ədəbiyyatında vücudnamələr. Tərtib edən: Elmira Fikrətqızı. II cild. (Əlyazması hüququnda)
9. Hacımüftüoğlu Halil. "Kuran'da ve Rivayetlerde Allah Elçisi Isa'nın 'Beden Almış Söz [Vahy]' Oluşu." KADER: Kelam Araştırmaları Dergisi 8.2 (2010). S. 91-114
10. İçli Ahmet. Ruh'un Kendine Yolculuğu: Arketipsel Sembolizm Bağlaminda Sihhat ü Maraz Üzerinde Bir İnceleme. Turkish Studies – Internatio nal Periodical For The Languages, Literature and History of Turkish or Turkic. Ankara-Turkey, Volume 8/13 Fall 2013, p. 1017-1030,
11. Məmmədova-Kekeç Elmira. Qayğısız Abdalın «Vücudnamə»sində Ontoloji Məsələlər. AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Hacı Bektaş Vəli Kültür Dərnəyi, Türk İşbirliği Koordinasyon Ajansı, AMEA Folklor İnstitutu. "Azərbaycan – Türkiyə: Yeddi Ozan" beynəlxalq elmi simpoziumu, Bakı, 2015, 07-10 may
12. Məmmədova-Kekeç Elmira. Yunus Əmrənin "Düşdü könül" qəzəlinin poetik forması haqqında: dövriyyə, yoxsa vücudnamə? Böyük türk şairi Yunus Əmrənin həyat və yaradıcılığına həsr olunmuş "Yaşayan Yunus Əmrə" Beynəlxalq Elmi Konfransının Materialları, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu, TC-nin Bakıdakı Səfirliyinin Kültür və Tanıtma Müşavirliyi, TİKA, Yunus Əmrə Türk Kültür Mərkəzi, 9 dekabr, 2013-cü il, Bakı, "Elm və təhsil", 2013, s. 478-490
13. Okcu Abdulmecit. "Kur'ân ve Evrim Açısından Canlıların Oluşumu." EKEV Akademi Dergisi Yıl: 17 Sayı: 56 (Yaz 2013), s. 151-177
14. Sakaoğlu Saim, Karadavut Zekeriya. Halk Masalları. Ankara: Anadolu Üniversitesi Yayını NO: 2389, 2013: 6
15. Selçuk Bahir. Zatînin" Gördüm" Redifli Gazeli Üzerine Tasavvufî Bir Tahlil Denemesi. Erdem, 2012, 10 (63). s. 205-222
16. Tenik Ali. "Türk Mutasavvif Şâirlerinde Varlik Anlayışı Eşrefoğlu Rûmî, Niyâzî-I Misrî ve Ahmed Kuddûsî Örneği." Sufi Journal of Scientific & Academic Research 23 2009
17. Ulucan Mehmet. Niyâzî-I Misrî'nin Şiirlerinde Varlik Anlayişi.Journal of Social Science, 2009. 31-41
18. Uyanık Mevlüt. İslam Felsefesinin Teşekkül Dönemi "Varlık" Anlayışında Birinci ve İkinci Cevher Kavramı. *Hitit Üniversitesi İlahiyat Fakültesi Dergisi,1*, 2002, s. 132-159.